



# Rəng qatının ovqat yaradıcılığı

## Əməkdar rəssam Cavid İsmayılovun bədii improvizələri haqqında düşüncələr...

**Azərbaycan təsviri sənətinin müstəqillik dövrünü əhatə edən inkişaf mənzərəsində, Bakı ilə yanaşı, Naxçıvan, Gəncə, Sumqayıt, Lənkəran, Şəmkir və s. şəhərlərində yaşayıb-yaradan rəssamların da fəaliyyəti xüsusi yer tutur.**

Bu mənada Əcəmi yurdunda Naxçıvan Muxtar Respublikası rəhbərliyinin təşəbbüsü ilə 2012-ci ildən başlayaraq ənənəvi olaraq təşkil olunan "Naxçıvan - bəşəriyyətin beşiyi" adlı Beynəlxalq Rəsm Festivalının yaradıcılarımızın sənət axtarışlarının gerçəkləşməsinə duyulası təsir göstərdiyini vurğulamaq istərdik. Ötən bu müddətdə həmin sənət festivalının neçə-neçə istedadı üzə çıxardığı, onların bədii irsini ictimailəşdirdiyi artıq danılmazdır. Gələcəyinə böyük ümidlə baxdığımız belə gənclərdən biri də Əməkdar rəssam Cavid İsmayılovdur...

Bir çoxlarından fərqli olaraq ixtisas təhsilini doğma Naxçıvanda - yerli Universitetdə alan Cavid İsmayılovun ilk ilham qaynağı həmyerlisi Bəhruz bəy Kəngərlinin əsərləri və onun bədiiləşdirdiyi doğma təbiət motivləri olmuşdusa, təhsilsonrası illərdə onun diqqətini Əcəmi yurdunda gündən-günə yenilən bədii proseslərin mənəvi yükünü daşıyan yaşlı həmkarlarının yaradıcılıq axtarışları cəlb etmişdi. Onun bu "maraq palitrası" kifayət qədər rəngarəng və əhatəli olduğundan, ən başlıcası isə gördüklərinin yaradıcılıqla dərkinə yönəldiyindən, gənc rəssamın müstəqillik illərində ərsəyə gətirdiyi əsərlərdə kiməsə bənzəməyin işartıları əvəzinə, gerçəkliyə özünəməxsus bədii münasibətin tədricən kamilləşən nəticələrini görürük. Başqa sözlə desək, onun müxtəlif janrlarda ifadə olunmuş düşüncələrinin bədii tutumunda milli rəngkarlığımızda bu vaxta qədər rast gəlmədiyimiz rəng və yaxı estetika qabarıq duyulmaqdadır...

Bütün yaradıcılığı boyu ən müxtəlif janrlara müraciət etməyə üstünlük verən rəssamın tamaşaçı duyğularını ovsunlayan özünəməxsus rəng-yaxı estetikası, bütünlükdə tanınan olsa da, yeri gəldikcə onun həm də duyulası təfsirdən keçdiyini görürük. Daha dəqiq desək, hər dəfə müraciət etdiyi obyekt, motiv, obraz və əşyalar müəllifin görünənlərə bədii münasibət göstərmək imkanlarını "sınağa" çəkən olub. Alınan nəticələrə əsasən demək olar ki, belə məqamlarda məhz mövcud auranın yaradıcıya güclü təsiri, kətanın rəng qatının estetikasının necəliyini şərtləndirmişdir. Yaradıcılıq axtarışlarında başlıca olaraq gerçəkçi sənət prinsiplərinə tapınan Cavid İsmayılov, rəng qatının "aysberq"liyinə səy göstərməsə də, "çalar məcmusu" kimi qəbul olunan kətan səthindən "boylanan"ların tamaşaçı hisslərini ovsunlamaq gücündə olması birmənalıdır. Bir qayda olaraq təsvirdən təfsirə keçən bu sənət axtarışları cəlbedici və düşündürücüdür...



Əlavə edək ki, Cavid İsmayılovun yağlı və sulu boya ilə ərsəyə gətirdiyi müxtəlif janrlı əsərlərin estetikasında müşahidə olunan bədii məziyyətlərin cövhərində bilavasitə, inandırıcılığın əldə olunması dursa da, rəssam heç vaxt yaradıcı duyğularını müəyyən çərçivədə saxlamağa səy göstərməmişdir. Bu mənada rəssamın yağlı boya ilə çəkdiyi portretlərdə ikonoqrafik dəqiqliyin bədii gerçəkliklə uğurlu sintezinə üstünlük verilməsi diqqətçəkəndir. Bununla belə, onun təntənəli xarakter daşıyan "Ömür yollarında" və "Gələcəyə inamla" portret-kompozisiyalarında fərdi improvizə potensialından sona qədər istifadə olunmadığı hiss olunsa da, torpaqlarımızın suverenliyi uğrunda canlarından keçməyə hazır olan Cavanşir Rəhimov, Yusif Mirzəyev və Polad Həşimovun obraz-portretlərində rəssamın yaxı-cizgi ekspressiyasını yaddaqalan estetikaya çevirə bilməsi qabarıq görünməkdədir. Qənaətimizcə, müəllif davamlı axtarışlarının uğurlu nəticəsi sayıla biləcək cizgi-yaxı oynaqlığını daha ciddi tutumlu hesab olunan şəxsiyyətlərin portretlərində də tətbiq etsəydi, biz daha fərqli-orijinal bədii tutumla qarşılaşa bilərdik. Bunu onun Naxçıvan torpağının rəmzinə çevrilən Bəhruz bəy Kəngərliyə həsr olunmuş portreti də təsdiqləyir. İsti-soyuq çalarların axıcılıqla əvəzlənməsindən yaranan bu obrazda nakam sənət aşiqinin çox qısa ömür yolunu şərtləndirən təzadlı yaşantılarına cəlbedici "bədii güzgü" tutulmuşdur, desək, yanılmarıq...

Real-gerçəkçi ayrıntıları ekspressiv cizgilərlə qovuşduran rəssamın ərsəyə gətirdiyi çoxsaylı portret-kompozisiyalarda isə onun janrın yeni bədii ifadə imkanlarını üzə çıxarmaq bacarığını görmək mümkündür. Bu əsərlərin kompozisiyalarında yer alan obrazlar ciddi-rəsmi ikonoqrafik əlamətlər çərçivəsində qalmadıqlarından və bilavasitə rəssam təxəyyülünün nəticəsi olduqlarına baxmayaraq, çox cəlbedici və düşündürücü qəbul olunurlar. Son illərdə yaradılmış "Şairə Qönçəbəyim", "Xan qızı", "Məhəbbət ilahəsi", "Əli və Nino", "Düşüncələr", "Lay-lay", "Novruz axşamı", "Toy", "Təmas", "Şərqin Qəməri", "Dörd ünsür", "Yanıq Kərəmi", "Könlüm keçir Qarabağdan", "Ömrün rəngi" və s. lövhələrində kompozisiyanın dominantına çevrilən obrazların öz-özlüyündə əhatələndikləri məkana necə güclü təsir göstərdikləri açıq duyulmaqdadır. Bu bədii-estetik təsir mövzunun və yaxud da süjetin açımına yardımçı ola biləcək irili-xırdalı kompozisiya ayrıntılarının həm də əsərin bütövlüyünü şərtləndirən tutumu ilə yarandığı da görünəndir. Müxtəlif rənglərin cövhərinə əlavə olunmuş cizgilər və bu qovşaqdan "boylanan" rəng qatında iki sənət növünün estetikası birləşdiyindən, bu bədii məntiqə tapınan sintezin aşıladığı cəlbedicilik və düşündürücülük heyranedicidir.

Daha çox yaradıcı insanlara yönəli söylənilən "Hamı baxır, amma hamı görmür" deyiminin əsl məna yükünü rəssamlar duyduqlarından, onların çox vaxt gözümüzdə adiləşən və yaxud da heç nəzərimizi cəlb etməyən həyat motivləri çox həssaslıqla təcrid olunub yaddaqalan tutumda bədiiləşdiriləndə, "sıravi"lərin görmədiklərini "seçilmişlər"in üzə çıxara bildiklərinə bir daha inanırıq. Onun "Qaranquşlar", "Dəvə güləşi", "Xoruz döyüşü", "Əbabil quşları" və s. tablolarında adi həyat həqiqətlərinə verdiyi bədii görüntü, milli kolorit daşıyıcısı olan naxışlarla süsləndiklərindən, təqdim olunan motivlər cəlbedici olmaqla yanaşı, həm də ovqat yaradıcı-duyğulandırıcı mənəvi qaynaq kimi qəbul olunurlar.

Cavid İsmayılovun sulu boya ilə ərsəyə gətirilmiş lövhələrində isə tamamilə fərqli estetika ilə qarşılaşırıq. Etiraf edək ki, bu texniki vasitə nə qədər ənənəviləşmiş hesab olunsa və bəzi hallarda hətta tükənmiş kimi qəbul edilsə də, Naxçıvanlı rəssamın akvarellərində yeni nəfəs duyulmaqdadır. Onun bu texnikanın icra sənətkarlığına dərindən bələd olmasının nəticəsidir ki, tətbiq etdiyi bədii improvizələrin sayəsində onun akvarellə çəkilmiş mənzərələrində və natürmortlarında görünənlər olduğundan da təravətli və heyranedici görünürlər. Bu yerdə xüsusi vurğulamaq lazımdır ki, Cavid İsmayılov bir qrafik kimi rəngkarlıqda (yağlı boya ilə çəkilmiş işləri nəzərdə tutulur) gerçəkləşdirə bilmədiyi bədii məziyyətləri, xüsusilə də rəng və yaxı axıcılığını həyata keçirə bilmişdir. Demək lazımdır ki, əgər yağlı boya texnikası ilə işlənmiş lövhələrində rənglərin ənənəvi-tanış bədii ruhunu ona əlavə olunmuş cizgilər dəyişibsə, sulu boya ilə ərsəyə gətirilmiş qrafik işlərdə rənglərin duyulası axıcılığı və şəffaflığı arzulanan təravətin gerçəkləşməsini şərtləndirmişdir. Bunu rəssamın müstəqillik illərində çəkdiyi "Naxçıvam nemətləri", "İlandağ", "Naxçıvan mənzərəsi", "Natürmort" və s. qrafik lövhələri də təsdiqləyir.

O, çəkdiyi mənzərələrdə bizi hamıya yaxşı tanış olan və yerli rəssamların da tez-tez müraciət etdikləri motivlərlə üz-üzə, göz-gözə qoysa da, tamaşaçı görünənlərdə məşhur məkanlara fərdi münasibətin mövcudluğunu hiss etməkdədir. Akvarelin texniki xüsusiyyətindən duyulası incəlik və ustalıqla istifadə edən Savid İsmayılov, kompozisiyanı təşkil edən ayrıntıların bir-birinə keçidində əldə etdiyi axıcılığın hesabına təbiətin duyğulandırıcı obrazını yaratmağa nail olmuşdur, desək, yanılmarıq.

Yeri gəlmişkən deyək ki, təməli böyük Bəhruz bəy Kəngərli tərəfindən qoyulmuş "Naxçıvan akvareli" arxada qalan bir əsr ərzində evolyusiyaya uğramış, rəssamların müxtəlif nəsillərinin (Sabir Məmmədov, Əbülfəz Fərəcoğlu və b.) sayəsində yeni-yeni bədii məziyyətlərlə zənginləşmişdir. Bu gün Naxçıvanda Cavid İsmayılovun bu texnikada yeni və maraqlı-zamansızlığa qovuşan əsərlər yaradıcısı hesab olunması da onun artıq bu sahəyə layiqli töhfələr verməsinin təsdiqidir.

Hazırda vaxtilə təhsil aldığı ali təhsil ocağında dekan vəzifəsində uğurla çalışması, yetişməkdə olan sənət yanğılı gənc nəslə rəssamlığın sirlərini öyrətməkdən usanmaması da onun həyatda əsl yerini tapmasının göstəricisidir. Belə insanların cəmiyyətimizə çox gərəkli olması isə danılmaz həqiqətdir...

**Ziyadxan Əliyev,**
**Əməkdar incəsənət xadimi, professor**